# Balaxanı – “qara qızıl”ın insan kapitalına çevrildiyi qəsəbə

**Bir müddət bundan əvvəl mediada Bakının Balaxanı qəsəbəsinin yeni turizm marşrutu kimi müəyyənləşdirilməsi və turizm məkanına çevrilməsi istiqamətində tədbirlərə başlanıldığı barədə məlumat yer almışdı. Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), Dövlət Turizm Agentliyi və “Bakı Abadlıq Xidməti” MMC tərəfindən birgə əməkdaşlıq çərçivəsində qəsəbənin yeni turizm məkanına çevrilməsi, turizm yönümlü sahibkarlığın təşviqi və yeni turizm obyektlərinin yaradılması üçün layihələrinin artıq reallaşdırıldığı bildirilmişdi. Hazırda isə görülən işlər sayəsində Bakının bu qədim qəsəbəsi yeni turizm marşrutu kimi təsdiqlənib. Bununla da, Balaxanıda yeni sahibkarlıq subyektlərinin, xüsusilə sənətkarlıq, xidmət və ticarət istiqamətlərində biznesin qurulmasına əlverişli şərait yaranıb. Azərbaycanın paytaxtətrafı qəsəbəsində bərqərar olan belə bir mühit artıq dünya mediasının da diqqətini çəkib. Məsələn, Balaxanı qəsəbəsi ilə bağlı İtaliyanın məşhur “Si Viaggia” səyahət portalında fotolar yerləşdirilib. Portalda “Turistləri və bloggerləri heyran edən Azərbaycan qəsəbəsi” adlı yazı da dərc olunub.**

***Balaxanının çox böyük tarixi var. Ancaq bu tarix bir növ kənarda qalmışdı. Çünki burada həm ekoloji vəziyyətin pis olması, yolların bərbad vəziyyəti və digər problemlər imkan vermirdi ki, hətta Azərbaycan vətəndaşları da Balaxanı haqqında dolğun məlumata malik olsunlar. İndi isə Balaxanı, necə deyərlər, dünya mətbuatında özünə yer tapıb və bu, hələ başlanğıcdır.***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**



Onu da deyək ki, Balaxanıda abadlıq-quruculuq, bərpa işləri əsasən yerli sakinlər tərəfindən gerçəkləşdirilib. Bu, qəsəbə sakinlərinin məşğulluğunun təmin olunmasına müsbət təsir göstərib. Ümumiyyətlə, tikinti, müasirləşdirmə prosesində iştirak edənlərin 70 faizi məhz yerli sakinlərdən ibarət olub.

Azərbaycan Prezidenti İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya sentyabrın 23-də Balaxanıda aparılan abadlıq işləri ilə tanış olarkən, bildirilib ki, qəsəbə Bakının ən qədim yaşayış yerlərindən biridir. XX əsrin əvvəllərindəki neft bumuna qədər Balaxanı Böyük İpək yolunun üstündə yerləşdiyindən strateji mövqeyə sahib olub. Uzun əsrlər boyu bu yer Çindən İspaniyaya qədər uzanan karvan yolunun əsas məntəqələrindən biri kimi tanınıb.

Burada qəsəbənin qədim və XX əsrin əvvəllərinə aid olan hissəsini əhatə edən işlər görülüb, tarixi memarlıq abidələri bərpa edilib, ekoloji vəziyyət yaxşılaşdırılıb. Mirzə Ələkbər Sabir adına park bərpa olunub. Balaxanıda yerli əhəng daşı materialları əsasında 1635-1636-cı illərdə tikilən və əhali arasında Xacə Ruhulla imarəti kimi tanınan Şah Səfi karvansarayının abadlaşdırılması da diqqətdən kənar qalmayıb. Qəsəbədəki XIV əsr memarlıq abidəsi Hacı Şəhla Məscidi və Balaxanı abidələrinin ən qiymətlilərindən hesab olunan Şakir ağa türbəsi də bərpa edilib.

Qəsəbədəki Ovdan XIV əsrdə tikilib. Ovdanın mənbəyindən su götürmək üçün 40 pilləkən aşağı enilib. Keçmişdə ovdan vasitəsilə Balaxanının içməli suya olan tələbatı ödənilib. Burada vaxtilə 18 hamam olub. Demək olar ki, hər məhəllədə hamam inşa edilib və onlar həm adlarına, həm də memarlıq üslubuna görə bir-birindən fərqlənib.

Qəsəbədəki “Qum hamamı” bir-biri ilə əlaqəli 3 hissədən ibarətdir. Bu hamam da qəsəbənin tarixi tikililərindən hesab olunur. Onun inşası XIV əsrə təsadüf edir.



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Balaxanı sakinləri ilə görüşlərində də qəsəbənin dünəni, bu günü və sabahı ilə bağlı ətraflı danışılıb. Dövlətimizin başçısı deyib: “Balaxanı kəndinin yeni dövrü başlayır. Mən bu münasibətlə sizi təbrik edirəm. Bilirsiniz ki, Balaxanıya mənim xüsusi diqqətim var. Hələ bir neçə il bundan əvvəl məşhur Balaxanı zibilxanasının təmizlənməsi, aradan qaldırılması artıq burada görülən ekoloji işlərə start verdi. Çünki bu, həm Balaxanı sakinlərinə böyük əziyyət verirdi, həm də əlbəttə ki, bütövlükdə Bakı şəhərinin sakinlərinə çox mənfi təsir edirdi. O zibilxanadan qalxan tüstülər faktiki olaraq havanı böyük dərəcədə çirkləndirirdi və insanların sağlamlığı üçün də bunun böyük ziyanı olmuşdur. Mən bu yaxınlarda həmin o layihə ilə bağlı televiziyalara müsahibəmdə öz sözlərimi dedim, təkrar etmək istəmirəm, vaxtilə zibilxana olmuş yer indi gözəl bir poliqona çevrilib və iş yerləri yaradılıb. Burada sənaye parkı, zibilyandırma zavodu fəaliyyət göstərir. Eyni zamanda, onun yanında yerləşən Böyükşor gölünün böyük hissəsi də artıq təmizlənib və gölün üzərindən yol da çəkilib. Ona görə indi gediş-gəliş üçün də yaxşı imkanlar yaradılıb”.

Ölkə rəhbəri qəsəbənin tarixiliyinin qorunması ilə bərabər, abadlaşdırılması, müasirləşdirilməsi prosesinin böyük məhəbbətlə, zövqlə aparılmasını xüsusi vurğulayıb. İnfrastruktur layihələrinin reallaşdırılmasında, sosial problemlərin həll edilməsində ən başlıca məqsəd insanların rahatlığı, yaşayış səviyyəsinin daha da yaxşılaşdırılması olub. Əlbəttə, bu zaman digər bir prioritet vəzifə – iş yerlərinin yaradılması da diqqət mərkəzində saxlanılıb: “Mənə verilən məlumata görə, burada yaşayan vətəndaşlar işlərə cəlb olunub. Onlar ağaclar, güllər, kollar yetişdirirlər və eyni zamanda, digər yerlərdən də gəlib burada işləyənlər var. Bütövlükdə bu abadlıq işlərində minə yaxın insan işlə təmin edilib”.

Burada bir məsələyə də toxunmaq istərdik. Azərbaycanda son 17 il ərzində mədəniyyət siyasətinin mühüm istiqamətlərindən biri olan mədəni irsin qorunması və təbliği diqqət mərkəzində saxlanıb. Ölkəmizin çoxəsrlik tarixə malik maddi mədəniyyət nümunələrinə həssaslıqla yanaşılıb, onların qorunması, saxlanılması, bərpası ilə bağlı önəmli tədbirlər həyata keçirilib, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafı təmin olunub, habelə hər bir vətəndaşın tarixi irsimizin qorunması üçün məsuliyyəti təşviq edilib. Biz bunu Balaxanının timsalında da aydın görə bilərik. Burada tarixi yadigarlara ən yüksək səviyyədə qayğı və diqqət göstərilib. Prezident İlham Əliyev Balaxanı sakinləri ilə görüşündə bu barədə bildirib: “Əlbəttə ki, tarixi abidələrin bərpası və aşkarlanması da məqsədlərdən biri idi. Bu gün mənə göstərilən tarixi abidələrin bəziləri yerin altında idi. O cümlədən “Qum hamamı”, digər abidələr, XIV əsrdə inşa edilmiş abidələr, sovet vaxtında tikilmiş abidələr – onlar da bizim milli sərvətimizdir. Bu abidələr bir daha onu göstərir ki, bu kəndin çox qədim tarixi, qədim mədəniyyəti var. Çünki ancaq yüksək mədəniyyətə sahib olan insanlar belə tikililər inşa edə bilərdilər. O cümlədən ovdan, hamam – bu, mədəniyyət deməkdir”.

Balaxanıda yaradılan şərait həm də bu qədim yaşayış məskəninin yaxın gələcəkdə respublikamızın turizm mərkəzlərindən biri kimi tanınmasını şərtləndirib. Bu, ilk növbədə, ölkəmizdə turizm sənayesinə mühüm önəm verilməsi ilə bağlıdır. Çünki müstəqil Azərbaycan Respublikasında qeyri-neft sektorunun inkişaf etdirilməsi prioritet istiqamətlərdən biridir. Dövlətimiz tərəfindən həyata keçirilən proqramlar və tədbirlər də müvafiq olaraq qeyri-neft sektorunun inkişafına kömək edir. Qeyri-neft sektorunun əsas sahələrindən biri olaraq turizm hökumətimizin hər zaman diqqət mərkəzindədir. Ölkəmizin təbii-coğrafi şəraiti, malik olduğu maddi-mənəvi resurslar, həmçinin tarixən formalaşmış adət-ənənələri bu sahənin inkişafı üçün zəmin yaradıb.

Turizmin inkişafı istiqamətində Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan dövlət siyasəti çərçivəsində bir sıra beynəlxalq təşkilatlarla da sıx əməkdaşlıq edilməkdədir. Təəssüf ki, COVID-19 pandemiyası ilə əlaqədar yaranmış çətin vəziyyətdə digər sahələr kimi turizm sənayesinə də böyük ziyan dəyib ki, bu da ölkə iqtisadiyyatına təsirsiz ötüşməyib. Əhalisinin sağlamlığı və təhlükəsizliyi mühüm amil olduğu üçün Azərbaycan da pandemiya dövründə dünya ölkələrinin əksəriyyəti kimi öz sərhədlərini bağlayıb. Prezident İlham Əliyevin BMT-nin Ümumdünya Turizm Təşkilatının Baş katibi Zurab Pololikaşvili ilə videogörüşü zamanı dediyi “Ümid edirik ki, pandemiya zəiflədikcə, o cümlədən bizim sıx əməkdaşlıq etdiyimiz Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə riayət etməklə biz də sərhədləri açacağıq. Bunun nə vaxt baş verəcəyini demək çətindir. Lakin bu, baş verən kimi, əlbəttə, turizm sektorunun bərpasına dair sizin tövsiyələriniz çox gərəkli olacaq.

Dövlətimizin başçısı Balaxanıda olarkən, bu qəsəbənin gələcək inkişafı ilə bağlı fikirlərində də turizmin inkişafı xüsusi yer tutub. Ölkə rəhbəri deyib: “Mənə verilən məlumata görə, xarici mətbuatda Balaxanı ilə bağlı materiallar dərc edilir. Avropada, Rusiyada televiziya kanallarında, internet saytlarında buraya maraq böyükdür. Əlbəttə ki, turistlərin axını daha böyük olacaq. Bu da qəsəbə sakinləri üçün yeni imkanlar yaradacaqdır. Yaxşı olardı ki, qəsəbə sakinləri turizmlə bağlı məsələlərdə fəal olsunlar və bu imkanlardan istifadə etsinlər, turizm xidmətlərini qonaqlara təqdim edə bilsinlər. İndi inkişaf etmiş bir çox ölkələrin şəhərlərinin kiçik qəsəbələrində belə turizm, tarixi yerlərdə yerli sakinlər bütün ümumi işlərə qoşulurlar, həm pul qazanırlar, həm öz tarixi, mədəniyyəti haqqında məlumat verirlər, eyni zamanda, turistlər üçün də gözəl şərait yaradırlar. Ona görə bu, artıq insanların özlərindən asılı olacaq. Təbii ki, dövlət də lazımi kömək göstərəcək. Burada ictimai iaşə obyektləri, kafelər, çayxanalar turistləri cəlb edə biləcək digər obyektlər zövqlə yaradılsın ki, həyat fəal olsun, insanlar daha yaxşı yaşasınlar və xaricdən gələn qonaqlar bu gözəlliyi görə bilsinlər”.

Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə Bakının, eləcə də paytaxtətrafı yaşayış məntəqələrinin ekoloji vəziyyətinin yaxşılaşması istiqamətində bir sıra önəmli layihələr həyata keçirilib, əvvəlki illərdə şəhərin havasını çirkləndirən mənbələr aradan götürülüb. Məsələn, əvvəllər şəhərimizin havasını çirkləndirən və Balaxanı zibilxanası kimi tanınan ərazidə hazırda müasir zibilyandırma zavodu, poliqon fəaliyyət göstərir. Gerçəkləşdirilən layihələr nəticəsində indi bu yer, eləcə də ora bitişik olan Böyükşor gölü ərazisi ekoloji təmiz zona kimi diqqət çəkir.

Artıq Balaxanıda da belə bir mühit mövcuddur. Dövlətimizin başçısı Balaxanı sakinləri ilə görüşündə bu barədə deyib: “Balaxanının çox böyük tarixi var. Ancaq bu tarix bir növ kənarda qalmışdı. Çünki burada həm ekoloji vəziyyətin pis olması, yolların bərbad vəziyyəti və digər problemlər imkan vermirdi ki, hətta Azərbaycan vətəndaşları da Balaxanı haqqında dolğun məlumata malik olsunlar. İndi isə Balaxanı, necə deyərlər, dünya mətbuatında özünə yer tapıb və bu, hələ başlanğıcdır...”

Prezident İlham Əliyev Balaxanı sakinləri ilə görüşündə Bakının digər qəsəbələrində də bu cür abadlıq-quruculuq tədbirlərinin həyata keçiriləcəyi, bununla bağlı artıq müvafiq qurumlara tapşırıqlar verildiyi barədə danışıb. Hazırda Bibiheybət qəsəbəsində də oxşar layihənin icra edildiyini vurğulayıb: “Balaxanı və Bibiheybət dünyanın ən qədim neft mərkəzləridir. O vaxt Bibiheybətdə mən göstəriş verdim, dedim bütün dünya bilməlidir ki, birinci neft quyusu burada qazılıb. Amma bunu əks etdirən hər hansı bir abidə var, yoxdur? Ona görə təklif etdim ki, orada qədim əşyalardan, tikinti materiallarından abidə kimi neft buruğunun maketi yaradılsın. İndi xaricdən gələn qonaqlar görürlər ki, dünyanın ən qədim neft quyusu harada qazılmışdır, əlbəttə ki, bu yerdə. Mən bu yaxınlarda demişəm, əgər o vaxt Azərbaycan müstəqil olsaydı, əgər o vaxt o neft bizim xalqımıza çatsaydı, bu gün biz dünyanın ən zəngin ölkəsi ola bilərdik. Amma biz müstəqilliyimizi bərpa edəndə Balaxanı, Bibiheybət ekoloji fəlakət şəraitində idi və bizim xalqımıza nə verdi? Bu, artıq ritorik sualdır. Ona görə bu gün biz bu yerləri ekoloji fəlakət zonalarından ekoloji cənnət zonalarına çevirməliyik və bunu edirik…”

Sonda qeyd edək ki, Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq Bakıda, eləcə də digər şəhər və rayonlarımızda həyata keçirilən tikinti, abadlıq-quruculuq tədbirlərinin həcmi gündən-günə artır. Bütün bunlar isə Azərbaycanın dünyanın ən gözəl ölkələrindən birinə çevirilməsini şərtləndirir.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***